## GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN SABİR RÜSTƏMXANLI HAQQINDA SÖYLƏDİKLƏRİ

Sən yazıçı, şair kimi mənim üçün çox yaxın bir adamsan. O illərdə sənin dediyin sözləri, yazdığın fikirləri deməyə bəzilərinin cəsarəti çatmırdı. Amma sən həm gənc olaraq, həm də öz istedadından istifadə edərək cəsarətin də oldu və onların hamısını yazmağına görə populyarlaşdın, hörmət qazandın və təsadüfi deyil ki, 1988-1989-cu illərdə xalq ayağa qalxanda da millətin önündə gedənlərdən biri olmusan. Şübhəsiz bu hərəkata ilham verənlər, onu müəyyən qədər istiqamətləndirənlər var idi. Onlardan biri də Sabir Rüstəmxanlıdır – öz alovlu nitqləri, öz səmimi sözləri, gözəl çıxışları və cəsarətli addımları ilə insanları daha da ilhamlandırırdı. Mən bunların hamısını qiymətləndirmişəm və indi də qiymətləndirirəm. Bu xalqın və xalq içərisində olan görkəmli insanların xidməti idi və həmin insanlardan biri də Sabir Rüstəmxanlıdır.

***

Sabir, mən hesab edirəm ki, o vaxtlar həqiqətən xalqın oyanmasında, inkişaf etməsində fəaliyyət göstərmiş adamlara indi heç kəs mənfi münasibət göstərə bilməz və göstərməməlidir. Məsələn, şəxsən sənin özün haqqında danışsaq, mən o vaxtlar sənin fəaliyyətini çox heyranlıqla müşahidə edirəm. Mən Moskvada yaşayırdım, bəzən meydandakı mitinqi Moskva televiziyası göstərirdi. Səni orada tribunada görəndə mən sevinirdim. Çünki yadımdadır, mən burada işlədiyim zaman sən gənc yazıçı, şair kimi, ümumiyyətlə, bizim cəmiyyətdə, o cümlədən mənim nəzərimdə çox hörmətli bir adam idin. Görəndə ki, Sabir Rüstəmxanlı xalqın qarşısında çıxış edir və ədalətsizliyi ittiham edir, bu, məni sevindirirdi.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Ümummilli Lideri**

Yaşlı adam kimi təsəvvür elədiyim Sabir Rüstəmxanlı cavan, arıq, gur qıvrım saçlı bir oğlandı. Məqalən çox gözəldir, məni kövrəltdi, - dedim - məxsusi sənə təşəkkürümü bildirməyə gəlmişəm. Hüseyn sağ olsun ki, sənin kimi istedadlı cavanları yığıb başına. Alnından öpüb, üzümü onunla bir otaqda oturan qocaman jurnalist Məmməd Əkbərə tutdum: “Görürsən, Məmməd Əkbər, papaqlar altında oğullar var, xəbərimiz yoxdur.” Məmməd Əkbər zarafatla: “Bizim xəbərimiz var!” deyib Sabiri xeyli tériflədi. “Elə bilirəm Şamonu yenidən tapdım! Bir oğlum getdi, yerinə başqa biri gəldi.”– dedim. Bu bizim ata-oğul münasibətimizin, dostluğumuzun başlanğıcıydı.

**Süleyman Rəhimov,**
**Xalq yazıçısı**

Sabir Rüstəmxanlı poeziyası milli şüur poeziyasıdır, xalqın, millətin öz mənliyini, əzəmətli keçmişini dərk etmək uğrunda mübarizəsinin, bütün rəsmi və qeyri-rəsmi yalanları, saxtakarlıqları darmadağın etmək yolunda səfərbər olunmuş iradə gücünün, mətanət və mərdanəliyin qarşısıalınmaz ruh qüvvəsinin poeziyasıdır.

***

...S.Rüstəmxanlı hardasa Səməd Vurğun, Şəhriyar, Rəsul Rza kimi yaxın, Ələkbər Sabir, Füzuli, Nəsimi kimi "uzaq" sələflərindən, Bəxtiyar Vahabzadə kimi çağdaşlarından təsirlənib qüvvət almış, öz yaşıdlarının çoxunu tezliklə arxada qoyub ən yeni Azərbaycan türk poeziyasının ön atəş xəttinə çıxa bilmişdir.

**Xəlil Rza Ulutürk,**
**Xalq şairi**

Biz onu demokratik hərəkatın ən qaynar yerlərində gördük. Sabir bir natiq, təşkilatçı, ictimai xadim kimi fəaliyyətə başladı. Azadlıq meydanında təşkil olunmuş mitinqlərdə, yüzminlər qarşısında, bəzən milyona çatan üsyançılar önündə alovlu, kəskin ictimai məzmunlu, azadlıq və

demokratiyaya çağıran çıxışlar etdi. Azərbaycan Xalq Cümhuriyyətinin bərpası, kommunist imperiyasının devrilməsi, rus əsarətinin dağılması, sapı özümüzdən olan partokratlarımızın hakimiyyətdən uzaqlaşdırılması, respublikada yeni demokratik qüvvələrin xalqın taleyinin həllində yaxından və ən fəal şəkildə iştirakı uğrunda mübarizə Sabirin həyat amalına çevrildi. O, tənqidlərdən, təqiblərdən, təhqirlərdən, zindana düşməkdən, dəyənək zərbələrindən, fiziki cəza alacağından qorxmadı. 1988-ci ildən üzübəri davam edən xalq hərəkatının təşkilatçılarından birinə çevrildi. Hər yerdə də Azərbaycanın istiqlaliyyəti, ərazi bütövlüyündən danışdı. Sabir baş redaktoru olduğu "Azərbaycan" qəzetində bu ideyaları təbliğ edənlərə geniş meydan verdi, özü də bir publisist kimi başda dayandı.

**İsmayıl Şıxlı,**
**Xalq yazıçısı**

Əzizim Sabir! Şəkidəyəm. Bu müddətdə sənin parlamentdəki çıxışını dinlədim və 01.07.1997 tarixli "Hüriyyət"də çap olunan qısa məqaləni oxudum. Parlamentdəki hərtərəfli düşünülmüş, ustalıqla deyilən fikirlərinə görə səni öpürəm. Sən həmişə öz sözünü mərdliklə, kişi kimi, bununla bərabər tutarlı məntiqlə deməyi bacarmısan. İndiki vaxtda mətləbi əymədən, yaltaqlanmadan, yarınmadan həqiqəti demək böyük ağılla bərabər, böyük kişilik tələb edir. Sən bu iki qütbü ağılın və məntiqin hesabına birləşdirməyi bacaran oğulsan. Buna görə də mən səni həmişə çox istəmiş, ömrümün sonuna qədər də səni özümə əqidə qardaşı hesab etmiş və edəcəyəm. Elçibəy haqqında televizorda verilən əhvalata baxıb iyrəndim. Söyüş, təhqir qüvvət əlaməti deyil, zəiflik əlamətidir. Sən qəzetdə buna çox ağıllı cavab vermisən, Yusif Səmədoğlunun cavabı da çox tutarlıdır. Hər ikiniz çox sağ olun. Bir məqaləmdə səni "Kişi şair" adlandırmışam. Çünki sən bütün yaradıcılığın boyu qəlbinin səsini yazmış, özünü bizə əsl Kişi kimi tanıtdırmısan. Əziz qardaşım, xəstəlikdən, zəiflikdən yaxa qurtara bilmirəm. İndi qocalığımı hiss edirəm. Ona görə də əlim qələm tutmur. Bu məktubu çox çətinliklə yazdım. Qələm əlimdə titrəyir. Məktubun pintiliyi zəiflik əlamətidir. Bir daha səni öpürəm.

***

Sal qayanı yarıb çıxan şəffaf bulaq Şairimiz,
Dumanlarda azanlara çıraq, mayaq Şairimiz!
Rüstəmxanlı soyadının üç min əsrin arxasından
Bu günlərə çəkə-çəkə nurlandıran Şairimiz.

**Bəxtiyar Vahabzadə,**
**Xalq şairi**

Mən Sabir Rüstəmxanlını gəncliyində şair kimi tanıyırdım. Onun vətənpərvərlik və milli ruhda yazdığı şeirlərini bəyənirdim. Romana keçəndən sonra mənim yazdığım konsepsiyalarla o qədər də düz gəlməyən, lakin samballı, dəyəri olan əsərlər yazdı. Mən Sabir Rüstəmxanlını eyni zamanda qeyrətli bir ictimai xadim kimi tanıyıram. O, xalqımızın həyatında son dərəcə gərəkli problemlər ətrafında müzakirələr yürüdür. Və olduqca lazımlı məsələlər qaldırır. Sabir Rüstəmxanlı bizim ən istedadlı ziyalılarımızdan biridir. Mən bundan sonra da Sabirin bəhrəli işləyəcəyinə, daha ağır, samballı əsərlər yazacağına inanır, ona müvəffəqiyyətlər arzulayıram.

**İsa Muğanna,**
**Xalq yazıçısı**

...Doğrudan da qəlbində istedad qığılcımı olanı bir şeirindən də tanımaq olar. Sabir Rüstəmxanlı şeirin vəzifəsini bilir, onun poetik ideya istiqamətini,vətəndaş qayəsini dərk edir."

**Məmməd Araz,**
**Xalq şairi**

Sabir Rüstəmxanlının əsərlərində tarixə və milli yaddaşa bağlılıq xüsusi yer tutur. O, Azərbaycan ədəbiyyatında milli kimlik məsələsini ardıcıl şəkildə işləyən yazıçılardandır.

**Elçin Əfəndiyev,**
**Xalq şairi**

Müstəqillik illərində isə Sabir Rüstəmxanlı poeziyasının vətəndaşlıq pafosu daha gur səsləndi. Qarabağ faciəsini, Qara yanvar müsibətini qanayan və yanan qələmlə yazdı. Doğma Azərbaycanın tarixini dərindən bilən, bu gününü bütün varlığıyla yaşayan, gələcəyini daima düşünən şair yaradıcılığında eyni zamanda bütün türk dünyasını əks etdirir. Şəxsən gedib gördüyü Orxan yazılarından çağdaş Türkiyəyə qədər Krım təəssüratlarından Kipr, Kərkük intibahlarına qədər böyük türk aləmi Sabir poeziyasının coğrafi və poetik xəritəsidir.

**Anar,**
**Xalq yazıçısı**

O, ictimai xadim kimi çox məşhurdur. “Ömür kitabı” əsərindən tutmuş Meydan hərəkatına, Meydan hərəkatından tutmuş bugünkü proseslərə kimi bir simada qalan, bir yolu olan mən deyərdim ki, yeganə insandır. Ədalət uğrunda mübarizədə, Azərbaycan xalqı qarşısına çıxan problemləri öz təfəkkürü ilə həll etməklə böyük bir yol keçib. “Ömür kitabı” bütün evlərin bəzəyidir, bütün evlərin iftixar olunası kitabıdır. Sabir Rüstəmxanlı Azərbaycan ictimaiyyətinə həddindən artıq çox lazımlı bir şəxsiyyətdir. Sabiri təkcə öz rayonunda yox, Azərbaycanda yox, Cənubda da çox istəyirlər. Onun beynəlxalq ictimai fəaliyyəti Avropada da məşhurlaşıb. Onu DAK sədri seçiblər. Deməli, Sabir respublikamızda ictimai xadim, Xalq şairi kimi, Cənubi Azərbaycanda Təbriz qeyrəti çəkən oğul kimi, beynəlxalq aləmdə, diaspor dünyasında öz sözünün kəsərliyi ilə tanınır və sevilir.

**Söhrab Tahir,**
**Xalq şairi**

Sabir Rüstəmxanlı eyni zamanda yorulmaz ictimai xadimdir. Uzun illər biz onu Azərbaycanda mətbuatın, nəşriyyatın aparıcı təşkilatçılarından biri kimi görmüşük. Xüsusilə nazir kimi onun xidmətləri hamının yadındadır. Eyni zamanda o, bir millət vəkili kimi həmişə xalqın mənafeyini, özünün ictimai fəaliyyətindən ön plandan saxlamış və şəxsən mənim qənaətimə görə onun heç bir təmənnası olmamışdır. Mən Sabir Rüstəmxanlıya iki istiqamətdə böyük uğurlar arzulayıram: birincisi ona şair kimi yeni yaradıcılıq uğurları, təzə kitablar, ikincisi, ictimaisiyasi fəaliyyətində, ən başlıcası Milli Məclisdə uğurlar arzu edirəm.

**Bəkir Nəbiyev,**
**akademik**

Xalq şairi Sabir Rüstəmxanlının yaradıcılığı Azərbaycanın müstəqilliyinin sənət aktıdır. O, yeni dövrün ən mükəmməl Azərbaycan naməsini yaratmışdır. Bədii düşüncə ilə elmi təfəkkürün vəhdəti Sabir Rüstəmxanlı yaradıcılığının özünəməxsusluğunu müəyyən edir. Sözün böyük mənasında yüksək vətəndaşlıq qayəsi Sabir Rüstəmxanlının yaradıcılığındakı və ümumiyyətlə fəaliyyətindəki bütün meylləri özündə cəmləşdirir. Sabir Rüstəmxanlını xalqa, Vətənə və müstəqil dövlətçiliyə xidmət etməyə gətirən yollar bundan sonra da onu daha böyük fədakarlıqla və məsuliyyətlə yazıbyaratmağa, çalışıb-işləməyə çağırır.

**İsa Həbibbəyli,**
**akademik**

Sabir Rüstəmxanlı Azərbaycan ədəbi-ictimai fikrinə, xüsusilə poeziyasına türkçülük ideyalarının bütün təbii axını ilə gəlişinin qarşısındakı maneələri heç bir tərəddüd etmədən inamla qaldıran ilk "sovet şairləri"ndən biridir.

**Nizami Cəfərov,**
**akademik**

Azərbaycanın Xalq şairi, millət adamı (onun rəsmən daşıdığı “millət vəkili” titulu da var. Amma çox adam millət vəkili ola bilər, hər millət vəkili əsl millət adamı sayılmaq mərtəbəsinə yüksəlməz) Sabir Rüstəmxanlı söz yox ki, Mirzə ələkbər Sabirdən sonra Sabir adı qoyulmuş ilk azərbaycanlı deyil. O Sabirlə bu Sabir ayrı-ayrı məktəblər, fərqli üslublar, bənzəməz yazı tərzləridir. Lakin o Sabir bu Sabirin işərisində döyünür. Onların amalları, məslәkləri bu yurda və xalqa məhəbbətləri eynidir. Bu Sabir o Sabirin uğrunda can qoyduğu amalları bütün yaradıcılığı və ictimai fəaliyyətləri boyunca daşıyan insandır. Bu Sabir o Sabiri XX yüzilin əvvəlində ağrıdan dərdləri XX yüzilin son onillərində, XXI əsrin əvvəllərində qələminə gətirən, köhnə dövrdə misilsiz adaşının deməyə, yazmağa macal tapmadıqlarını yeni zaman içərisində ədəbiyyat ötkəm sözünə çevirəndir. Sabir Rüstəmxanlı bu günədək yaratdıqları ilə görkəmli babasının etibarlı nəvəsi, onun möhtəşəm ruhunun sağlam daşıyıcısı olduğunu dönə-dönə sübuta yetirib. Yol isə davam edir və Sabir Rüstəmxanlının yaşayıb-yaradacağı çoxlu illər, deməli, Böyük Adaşının əsl varisi olduğunu, daşıdığı şərəfli ada layiqliyini, həqiqətə, qələmə və xalqa sədaqətini yenidən dəfə-dəfə təsdiqləmək imkanları hələ qarşıdadır.

**Rəfael Hüseynov,**
**akademik**

Sabir Rüstəmxanlının yaradıcılığı o qədər çoxşaxəli, iftixar doğuran yaradıcılıqdır ki, nədən yazacağının fərqinə varırsan: şair, yazıçı, folklorşünas, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, publisist, qeyrətli ictimai-xadim. Hələ bu az imiş kimi, şəxsiyyət kimi bütövdür, ədalətli və insaflıdır. Gənc yazarlara arxa olandır, örnək azərbaycançı və türkçüdür. Təfəkkür sahibidir, fikir adamıdır.Dostluqda möhkəmdir. Müəyyən səbəblər ucbatından sıxıntıya məruz qalan qələm sahiblərinin yanında olandır...

**Qəzənfər Paşayev,**
**Əməkdar elm xadimi, professor**

Hələ tələbəlik illərindən, yəni 1960-cı illərin sonlarından "Ədəbiyyat və incəsənət" qəzetində, sonra "Yazıçı" nəşriyyatında  çalışmağa başlayan, özünəməxsus xarakterik şeirləri ilə böyük ədəbiyyata gələn Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı vətənçilik, müstəqillik, bütövlük duyğuları aşılayan əsərləri ilə tez bir zamanda geniş tanınıb. Xalqımızın tarixi yaddaşını silkələyib oyadan, milli kimlik barədə düşünməyə vadar edən kitabları ilə S.Rüstəmxanlı Azərbaycan ədəbi-bədii və ictimai-siyasi fikrinin, həmçinin ümumən əhatəli oxucu dairəsinin diqqət mərkəzində dayanıb.

**Eynulla Mədətli,**
**tarix elmləri doktoru**

Sabir Rüstəmxanli yaradıcılığı bir daha təsdiq edir ki, XXI əsrə daxil olan, milli olduğu qədər bəşəri olan Azərbaycan poeziyası ötən əsrlər boyu əldə edilmiş nailiyyətləri qorumaqla yanaşı, ləyaqətlə yaşadır.

**Salidə Şərifova,**
**professor**

Milli Müstəqillik dövrü ədəbiyyatının yaranmasında, formalaşmasında S.Rüstəmxanlının özünəməxsus yeri, rolu, dəsti-xətti var. Bir-birini təkrarlamayan, hər birisi Vətənin azadlığına köklənmiş şeirlər neçə qəlbə yol açaraq əks-səda doğurmuşdur. Vətənin dar günündə xalqı bir araya

gətirən bu poeziya haqqa, ədalətə, məntiqə, mənəviyyata arxalanaraq istəyinə, məramına, məqsədinə nail olmuşdur.

Ən böyük, ülvi sevgi, böyük eşq vətənə olana sevgidir. Yurd, el-obaya bağlılıqdır. Doğulduğun, böyüdüyün torpağa olan sədaqətdir. Bu həqiqi sevgidən doğulan şeirlər də əbədidir, ölməzdir və basılmaz bir ordudur. Sabir Rüstəmxanlının şeirləri məhz bu qəbildəndir.

**Bahar Bərdəli,**
**filologiya üzrə fəlsəfə doktoru**

Sabir Rüstəmxanlı ədəbi mühitdə milli mövqeyi ilə seçilən və maraq doğuran sənətkardır. Böyük azadlıq ehtiraslarından doğan Sabir Rüstəmxanlı bədii irsinin bütün janrlarında toxunduğu məsələlər vətəndaşlıq qayəsi nümunəsində aparıcılığı ilə fərqlənir. Maraq doğuran, oxucunu cəlb edən, həm də milli ideologiyamıza lazım olan odur ki, Sabir Rüstəmxanlının vətəndaşlıq qayəsi çılpaq tərənnüm nümunəsi kimi yox, milli ruh göstəricisi tipində, həm canlandırılır, həm də təqdim olunur. Buna görə də ecazkar qələminin gücü ilə Sabir Rüstəmxanlının həyat həqiqətlərinə təkrarolunmaz müdaxilə və münasibət bacarığına heyrət etməmək olmur.

**Elman Quliyev,**
**filologiya üzrə elmlər doktoru**

Sabir Rüstəmxanlı romanlarında Azərbaycan varlığının elə dövrlərini predmet seçir ki, millətin həyatında dönüş nöqtələrini aktualizə edir, dayanışma çağlarına işıq salmaqla gələcək inkişaf yollarına da rəvac verir. Mifoloji, tarixi, ya müasir qatlar yazıçının romanlarında eyni çəkidə, kəsərlidir, lakin əsas deyildir. Çünki Sabir Rüstəmxanlının romanlarında Söz, deyim, diskurs, bədii həqiqətin mənbəyi və mündəricəsi, bir qayda olaraq, "ictimai-siyasi"dir. Bəlkə buna görədir, yazıçı tarixi romanlarını da, - əlbəttə, "tarix"ə xələl gətirməmək şərtilə, - müasirlik kimi yazır; hər yerdə və həmişə milli varlığın, türklüyün, Azərbaycan mənasının bəlirlərini axtarır və əks etdirir.

**Tehran Əlişanoğlu,**
**filologiya elmləri doktoru**

Sabir Rüstəmxanlı Azərbaycanın ən yaxın tarixinin simvollarından biridir, dövlətimizin ideoloji simalarındandır.

***

Sabir Rüstəmxanlı estetik dünyagörüşümüzü formalaşdıran yüzlərlə gözəlşeirin müəllifidir.

***

44 günlük Vətən savaşının çox, amma çox nəticələri var. O nəticələrdən biri də budur ki, Sabir Rüstəmxanlının "Ömür" kitabı Zori Balayanın "Ocaq" cızmaqarasına qalib gəldi. Çünki "Ömür" milli idi, "Ocaq" faşist.

**Taleh Şahsuvarlı,**
**jurnalist**